# Kəbəyə dönən evlərə doğru

Başlığı seçməyim mənə heç bir çətinlik vermədi, hətta fikirləşmək üçün heç bir az da olsa, vaxtımı almadı. Başlıq seçmək üçün bir az düşünüb-daşınmalısan, həmin sərlövhə altında nələri yazacağını da sözsüz ki, elə başlıq seçərkən müəyyənləşdirməlisən. Belə olan halda niyə bu işlər mənim zamanımı almadı? Əziz oxucular! Bir az tələsməyin, bu sirri yazının sonlarında açıqlayacağam.

19 yanvar 2022-ci ildə səhər tezdən mən vəatambirlikdə Hacıqabul, Saatlı, Sabirabad, İmişli, Beyləqan, Xocavənd və Ağcabədi rayon İcra hakimiyyətlərinə getmək üçün bu rayonlar istiqamətində atamın idarə etdiyi avtomaşınla yola başladıq. Səfərimizin məqsədi Vətən müharibəsinin ilk saatlarından başlayıb 1 ildən də az müddətə qələmə aldığım "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabımı haqqında bəhs edilən vətənimin qəhrəman oğullarının ailə üzvlərinə hədiyyə etmək, 20 Yanvar Anım günündə şəhidlərimizin əziz xatirəsini bir daha yad etməkdən ibarət idi.Şəhid ailələrinə hədiyyə etməyim məqsədilə atamın halalca təqaüdü hesabına təzəcə işıq üzü görmüş, sayca 5-ci "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabım yenicə işğaldan azad edilmiş torpaqlarımız haqqında şeirlər, canlarını vətən yolunda fəda etmiş 450-dən çox 1-ci Qarabağ və Vətən Müharibəsi şəhidlərimiz, qazilərimiz və müharibə iştirakçıları haqqında məqalələr, şeirlər, publisistik yazılar, haqqında məlumat olmayan şəhidlərimiz barədə tərəfimdən yaradılmış vikipediya məlumatlarını özündə cəmləşdirmişdir.Yol boyu ardıcıllıqla rayon icra hakimiyyətlərində "Vətən müharibəsi, şəhid ailələri və müharibə iştirakçıları ilə iş" şöbəsinin məsul əməkdaşları ilə görüşdük, gəlişimizin məqsədini onlara bildirdik. Qeyd edim ki, hər rayondan olan şəhidlərimizin ad, soyad, ata adı, ünvanı, eləcə də kitabda onun haqqında hansı səhifədə yazı olması barədə ayrıca cədvəl hazırlamışdıq və kitabları da RİH əməkdaşlarına həmin cədvəl üzrə təqdim edirdik. Söz yox ki, hər bir şəhidimizin ailə üzvləri, valideynləri ilə görüşüb onlara ehtiramımı bildirib şəhidlərimizi dünyaya gətirmiş analarımızın əllərindən öpməyi özüm üçün böyük şərəf bilərdim. Lakin nə qədər arzusunda olsam da bir istiqamətdə, bir səfərdəbiri-birində uzaq məsafələrdə yerləşən rayonların biri-birindən uzaq məsafələrdə yerləşən yaşayış məntəqələrində 100-dən çox şəhid ailələri ilə görüşə bilmək vaxt baxımından olduqca mümkünsüz idi. Ona görə də əvvəlcədən qərara aldığımız kimi kitabları siyahı üzrə şəhid ailələrinə çatdırmaları üçün Hacıqabul rayon İcra Hakimiyyətində Gülmirzə müəllimə, Sabirabad rayon İcra Hakimiyyətində Nurağa müəllimə, Saatlı rayon İcra Hakimiyyətində Fərhad müəllimə, İmişli rayon İcra Hakimiyyətində İntizar müəllimə, Beyləqan rayon İcra Hakimiyyətində Heybət müəllimə, Xocavənd rayon İcra Hakimiyyətində Şaiq müəllimə, Ağcabədi rayon İcra Hakimiyyətində isə Şöhlət müəllimin telefonla məsləhətinə əsasən növbətçi polis əməkdaşına təhvil verdik. Adları sadalanan rayonlarda gəlişimizin məqsədini bildikdə bizi çox səmimi, isti münasibətlə qarşıladılar, kitabın ərsəyə gətirilməsinə görə təşəkkürlərini bildirdilər. Mən isə şəhidlərimizin müqəddəs ruhu qarşısında bunun borcum olduğunu bildirdim. Mətbuatdan bilirdim ki, film çəkmək, məqalə, kitab yazmaq adı ilə şəhid ailələrini aldadıb onlardan pul alan "insan"lar var. Ona görə də kitabda yer almış rayonlar üzrə şəhidlərimizin adı və ünvanı ilə bərabər özümün əlaqə telefonumu verdim ki, şəffaflığın təmin olunması üçün kitabı hədiyyə kimi qəbul etmiş hər bir şəhid ailəsi həmin telefon nömrəsinə zəng edib kitabı əldə etdikləri barədə məlumat versinlər.

Yolboyu mənə Hacıqabuldan olan şəhidlərimiz Qubad Zeynalovun, Süleyman Bağırovun və Qalası Kərimlinin ailələrindən təşəkkür zəngləri gəlirdi. Onu deyim ki, səhəri gün, yəni 20 Yanvar günü həm də şəhid Süleyman Bağırovun cənnətdəki 2-ci ad günü idi. Mən kitabı alandan sonra əlaqə saxlayan bütün şəhid ailələrinə dərin minnətdarlığımı bildirirdim. Həqiqətən də kitaba görə şəhid ailələrinin əməyimə verdiyi qiymət mənim üçün dünyalara dəyər, baxmayaraq ki mən şəhidlərimizin yolunda etdiklərimi zəhmət bilməmişəm, bu işi görməkdən böyük fəxr duymuşam! Eyni ilə də getdiyimiz rayonlarda görüşdüyümüz məsul işçilərin göstərdiyi diqqət, səmimiyyət - hər şey çox yüksək səviyyədə oldu. Doğulduğum doğma torpağım olan İmişli şəhərində də kitablarımı təqdim etdim. Orada da kitabı qəbul edən məsul şəxslər də mənə təşəkkürlərini ifadə edərək kitabları mütləq şəhid ailələrinə verəcəklərini bildirdilər. Hədiyyə kimi bir kitab da İmişli rayonundan məsul şəxs olan İntizam müəllimə verdim. Onunla şəhidlərimiz mövzusunda çox əhatəli söhbətimiz oldu.

Növbəti - Beyləqan rayonunda da RİH-in həmin sahə üzrə məsul əməkdaşı Fərhad müəllimlə görüşümüz maraqlı oldu. Biz şəhid ailələrinə çatdırılması üçün kitabları Fərhad müəllimə təqdim etdik. O, mənə kitablara görə səmimi ürək sözlərini deyib, arzularını çatdırdı və təşəkkür etdi. Onunla görüşümüzdən çox məmnun qaldım. Mən də göstərdiyi diqqətə görə ona təşəkkürümü bildirdim. Azərbaycanımızın şəhid şəhərlərindənbiri olan Beyləqandan da yol boyu şəhid ailələrindən təşəkkür zəngləri gəlirdi. Səhərisi gün həm də Beyləqanın Şərq qəsəbəsindən olan şəhid əsgər, Şuşa fatehlərindən biri olan Tural Ədil oğlu Bayramlının ad günü idi. Qeyd edim ki, şəhidimiz 20 yanvarda doğulsa da 20 Yanvar Şəhidlərimizin anım günü olduğundan sağlığında bu tarixdə heç vaxt ad günü keçirməmiş, doğum gününü fevral ayının 10-na dəyişmişdir.. Ancaq o, şəhidlik zirvəsinə ucaldıqdan sonra ailəsi 2 ildir ki, şəhidimizin cənnətdəki doğum gününü 20 yanvarda qeyd edirlər. Şəhidimizin ailəsi dəəlbəttə ki, biz də üz-üzə görüşməyi çox istərdik.Lakin vaxt məhdudiyyətimiz var idi. İnşəAllah, gələn səfərimdə onlarla üz-üzə olacağam və Qəhrəmanımızın yaşadığı, böyüdüyü evi görmək mənə qismət olacaq. Həmin gün 2 şəhidimizə və 2 Şuşa Fatehimizə - Süleyman Bağırovla Tural Bayramlıya ad günləri üçün verdiyim hədiyyə və onun yüksək səviyyədə qarşılanması məni xoşbəxtlərin xoşbəxti etdi. Allah şəhidlərimizin ailələrinə və onlarla bərabər bütün şəhidlərin ailələrinə səbir versin, onları həmişə sevindirsin! Şəhidlərimizin ruhu üçün etdiklərimiz və edəcəklərimiz bizim borcumuzdur, çünki şəhidlərimizin bizim üçün etdikləri heç nə ilə əvəz oluna bilməz. Hələ ki, Beyləqandan şəhid Rəşid Tahirovun, şəhid Anar Tağıyevin və şəhid Elvin İsmayılovun ailələrindən təşəkkür zəngləri gəlib. Şəhid Elvin İsmayılov və onun əbədi sevgisi Şəhla xanım haqqında kitabda "Bir sevgi var..." adlı poemam da yer almışdır. Məqaləni yazmağa başlamazdan əvvəl Şəhla xanımdan da zəng gəldi. O, bir şəhid xanımı kimi mənə təşəkkür etdi, mənə uğurlar arzuladı, diləklər dilədi. Mən də öz növbəmdə şəhid ailələrinin etimadını sona qədər doğruldacağıma, bu yolda yorulmadan, mətin addımlarla daim addımlayacağıma söz verdim.

Azərbaycanımızın hər qarış torpağı, hər xırda daşı, dağı, dərəsi, meşəsi, düzəni, səhrası, çayı, gölü, dənizi, hər kəndi, şəhəri, şimalı, qərbi, cənubu, hər tərəfi -- hər yeri mənim üçün eynidir, hamısı mənim üçün Vətəndir. Elə bu kitabı yazarkən də mən eyni yanaşmışam, ona görə də kitabda Azərbaycanımızın 60-dan çox rayonunun şəhidləri, qaziləri barədə yazı yer almışdır. Bu rayonlardan biri də mənim ana yurdum, əzəldən işğala məruz qalmış digər ərazilərimiz kimi başı bəlalar çəkmiş, sonda, qəhrəmanlıq dastanı yazmış şəhidlərimizin canı, qazilərimizin qanı, igid əsgər və zabitlərimizin şücaəti sayəsində azadlığına qovuşa bilmiş Xocavənd rayonunun İcra Hakimiyyətinə səfərimdən dəsöz açmağı özümə borc bilirəm. Kitabda Xocavənd şəhidlərindən bəhs edən yazılarım da var. BunlarBirinci və İkinci Qarabağ müharibəsində verilən 13 nəfər Xocavənd şəhidi haqqında məlumatlardan ibarətdir. Biz ümumi qayda ilə kitabları təqdim etmək üçün "Haramı düzü"ndə salınmış Xocavənd RİH-in inzibati binasının yerləşdiyi Qəsəbəyə getdik. Qəsəbənin müasirliyi, küçələrin genişliyi, qəsəbənin girişində yol boyu yaşıllıqlar arasında quraşdırılmış Xocavənd şəhidlərinin portretləri adamı həm qürurlandırır, həm də duyğulandırırdı. "Haramı düzü" adlanan bir səhrada belə gözəl bir şəhər-qəsəbənin inşa edilməsini heyranlıq və təəccüblə yalnız alqışlamaq olar. RİH-in inzibati binasına daxil olanda bizi anamın Xocavənd RİH-də məsul vəzifədə işləyən əmisi oğlu İbrahim Həsənov qarşıladı. Biz bu mənzərədən təəccübləndikdə İbrahim dayı bizi iş otağının pəncərəsindən gördüyü üçün qarşılamağa çıxdığını dedi. İlk olaraq elə orada Qarabağ qonaqpərvərliyinin şahidi oldum. Gəlişimizin məqsədini bildikdən sonra İbrahim dayı bizi RİH-in bu sahəyə baxan məsul işçisi ilə--Şaiq müəllim Aslanovla, sonra isə RİH başçısınınmüavini Əfsanə xanım Quliyeva ilə görüşdürdü. Biz şəhid ailələrinə hədiyyə olunacaq kitabları Şaiq müəllimə təqdim etdik. Əfsanə xanım bizim gəlişimiz barədə RİH başçısı Eyvaz müəllim Hüseynova məlumat verdi və az vaxt keçmiş Eyvaz müəllimin bizi öz iş otağında gözlədiyini bildirdi. RİH başçısı Eyvaz müəllim bizi olduqca səmimi, yüksək mehribanlıq və doğmalıqla qarşıladı, biz ona dərin minnətdarlığımızı bildirdik. Nə qədər təvazökarlıqdan uzaq olsa da deyə bilərəm ki, Eyvaz müəllim yeni kitabımın həcmindən, mənim azyaşlı olmağımdan, qısa müddətdə şəhidlərimiz haqqında belə bir kitabı ərsəyə gətirməyimdən təəccübləndi, heyrətə gəldiyini gizlətmədi və ona görə də bir daha təşəkkürünü bildirdi, öz ürək sözlərini dedi. Əslən Xocavənd rayonunun Muğanlı kəndindən olan hörmətli Eyvaz müəllimelə yanımızda kitabı vərəqləyib baxarkən qəhərləndi, Muğanlı kəndindən olan Birinci Qarabağ müharibəsi şəhidləri Yaqub Xoşdaridən, Səxavət Quliyevdən, Elşən Hüseynovdan söz saldı, onlar barədə xatirələrindən, döyüş yoldaşlarından, özünün döyüş yolundan, döyüş yoldaşlarının cəsurluğundan, qəhrəmanlıqlarından, silah-sursat çatışmazlığından, qeyri-bərabər döyüşlərdə bütün növ silahlarla silahlanmış düşmən önündə bizim qəhrəman döyüşçülərimizin mərdliklə dayandığından, gözlənilmədən düşmənə sarsıdıcı zərbələrendirmələrindən danışdı. Eyvaz müəllimin danışdıqları hamısı çox-çox filmlərə, cild-cild kitablara mövzu olacaq qəhrəmanlıq dastanlarıdır. Həqiqətən də insan bunların hamısını fikirləşəndə Vətən müharibəsinin şəhidlərini təsvir edən "dastana döndü" sözünün hikmətinə heç şübhə etmir, heç kim də qəhrəmanlarımız tərəfindən yazılmış belə dastanlara təəccüblənməməlidir, çünki hər bir dastanın qəhrəmanı türk oğlu türkdür, Azər türküdür, o, hər bir qəhrəmanlıq dastanı yazmağa qadirdir.

Xocavənd əhidlərindən biri olan Cəsarət Abbasovun qardaşı oğlu, şəhid olandan sonra adını daşıyan Cəsarət Abbaslı ali hərbi məktəbi bitirdi. Kəşfiyyatçı ixtisasına yiyələndi və baş leytenant kimi Vətən müharibəsində, Suqovuşanda döyüşdü, Qazi adını alaraq bu şərəflə geri döndü. O, indi "Qarabağ" ordeni laureatı, Suqovuşan Fatehi və şəhid əmisi ilə birlikdə hamımızın Qəhrəmanıdır. O, özü də indi ayrı bir dastandır. Görüş zamanı Eyvaz müəllim Hüseynov bildirdi ki, yaxın günlərdə yeni "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabımın Beyləqanvə Xocavənd rayonlarından olan şəhid ailələri, qazi, müharibə iştirakçıları, həmçinin hər iki rayonun təhsil müəssisələri rəhbərləri və işçilərinin iştirakı ilə təqdimat mərasiminin keçirilməsini nəzərdə tutublar. Ana yurdumda şəhid ailələrinə, qazilərimizə, müharibə iştirakçılarına və mənim kitabıma göstərilən bu qədər diqqət, qayğı, səmimiyyət, hörmət və dəyər mənə həddən artıq xoş idi, bu münasibətlər məni həddən çox sevindirir, gələcəkdə daha həvəslə və yorulmadan yaradıcılıqla məşğul olmağa ruhlandırırdı. Bu doğma, isti münasibət mənim üzərimə daha böyük və olduqca məsuliyyətli bir vəzifə qoyurdu.Onu da qeyd edim ki, bu, Eyvaz müəllimlə mənim 3-cü rəsmi görüşüm idi.1-ci görüşümüz bacım Tərlan Əliyeva ilə birlikdə ali məktəbə qəbul zamanı yüksək bal toplamış Xocavənd rayonundan olan tələbə adını qazanmış gənclərlə keçirilən tədbir zamanı, 2-ci görüşümüz isə Xocavənd və Şuşa rayon icra hakimiyyəti başçılarının hər iki rayon ictimaiyyət nümayəndələri və sakinləri ilə Bakı şəhərində keçirdikləri birgə tədbir zamanı olmuşdur.



Nəhayət, ən xoş təəssüratlarla Eyvaz müəllimdən və doğma Xocavəndimdən ayrılmalı olduq... İndi isə yolumuz Ağcabədi şəhərinə, Ağcabədi RİH-nə idi, növbəti və həmin günlük sonuncu gedəcəyimiz ünvan Üzeyir vətəni idi. Biz Ağcabədi RİH-in inzibati binasına çatanda artıq saat 18:20 radələri olduğundan iş saatı başa çatmışdı. Ona görə də Ağcabədi rayonu üzrə 28 şəhid ailəsinə çatacaq kitabı, şəhidlərimizin ünvanı olan siyahını RİH-in inzibati binasının girişində olan polis əməkdaşının otağında onlara təhvil verib oradan ata vətənim olan Yuxarı Qiyaməddinli kəndinə getdik.

***(Davamı var)***

***Sevindik NƏSİBOĞLU,***
***8-ci sinif şagirdi, şair-publisist,***
***AJB-nin üzvü***
***22.01.2022***